# Qurani-Kərimdən incilər



# M Ü N D Ə R İ C A T

1. Birinci dərs: Allahın varlığı --------------------------------------1-2

2. İkinci dərs: Allah sevgisi -----------------------------------------3-4

3. Üçüncü dərs: Allahın rəhmi və qəzəbi ---------------------------5-6

4. Dördüncü dərs: Adəm (ə) və Şeytan ----------------------------7-8

5. Beşinci dərs: Qiyamət günü --------------------------------------9-10

6. Altıncı dərs: Habil və Qabil ---------------------------------------11-12

7. Yeddinci dərs: Ən gözəl dostlar ---------------------------------13-14

8. Səkkizinci dərs: Həzrət Muhəmməd (s.ə) ----------------------15-16

9. Doqquzuncu dərs: İmam Əli (ə) ---------------------------------17-18

10. Onuncu dərs: 12 pak İmamın (ə) rəhbərliyi --------------------19-20

## Birinci dərs:

اللَّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا فِي سِتَّةِ أَيَّامٍ

"Allah o kəsdir ki, göyləri və yeri və bu ikisi arasında olan hər şeyi altı gündə yaratdı..." (Səcdə surəsi, 4).

Əziz uşaqlar və yeniyetmələr, artıq siz böyümüsünüz, ona görə də düşünməyi və dünyada olan bir çox hadisələrin səbəbini dərk etməyi bacarırsınız. Ətrafınızda olan hər şeyin və hər bir hadisənin özünə məxsus bir səbəbi olduğunu dərk edirsiniz. Əgər ananız yemək bişirməsə, çox ehtimal ki, dadlı yemək yeyə bilməyəcəyinizi bilirsiniz. Deməli, sizin dadlı və isti yemək yeyə bilmənizin səbəbi mehriban ananızın varlığıdır. Əgər atanız evə yeməli ərzaqlar almazsa, ana da bişirmək üçün heç nə tapmayacaqdır. Deməli ananın nəsə bişirə bilməsinin səbəbi də atanızın vücududur. Atanın ərzaq ala bilməsinin səbəbi isə işləyib pul qazanması və dükandan o ərzaqları ala bilməsidir. Dükanda yeməli ərzaqların tapılmasının səbəbi isə yaşadığımız dünyanın üzərində bir çox bitkilərin bitməsi, meyvələrin və taxıl kimi məhsulların yetişmiş olmasıdır. Bu gözəl və növbənöv yeməli ərzaqların yetişdiyi torpağı yaradan və yağış yağdıraraq bitkiləri cücərdən səbəb isə hər şeyin yaradıcısı olan uca Allahdır. Deməli, sizin yemək yeyə bilmənizin əsas səbəbkarı məhz gözəgörünməz və tək olan Allahdır. Sizi, ananı, atanı, babanı, nənəni və bütün insanları yaradan Odur. Təbiətdə gördüyünüz bütün heyvanları da yaradan Allahdır. Göydə cəh-cəh vuraraq uçan quşları, dördayaq üstə gəzən növbənöv heyvanları, ilan kimi yerdə sürünərək hərəkət edən canlıları və suda üzən bütün balıqları ən gözəl formada yaradan Allahdır. Hündürlüyü yüzlərlə metrə çatan dağları, gözümüzün görə bilmədiyi qədər dərin olan dənizləri, axan çayları, sərin suyu olan bulaqları, ağaclarla örtülmüş meşələri və saymaqla bitməyəcək qədər bir çox nemətləri, tək olan Allah yaratmışdır. Fəsilləri yaradan, günəşi və ayı hərəkət etdirən, beləliklə dünyaya nizam-intizam verən uca Allahdır. O, səbəblər səbəbidir və ilk səbəbdir. Onun tayı-bərabəri yoxdur, yəni sizin təsəvvür edə biləcəyiniz hər şeydən daha ucadır. Biz insanların zehni və təsəvvür gücü Onun necəliyini dərk etməkdə acizdir. Çünki, bizim zehnimiz yalnız hiss edilən əşyaları və cisimləri dərk edə bilir. O isə əsla cisim deyildir, Onun şəriki və misalı yoxdur. O, təkdir və yeganə varlıqdır ki, köməyə ehtiyacı yoxdur. Onun heç nəyə və heç kimə ehtiyacı yoxdur. Yəni, Allah ehtiyacsızdır. Onun bizim kimi övladı, qızı və ya oğlu yoxdur. Olması da mümkün deyildir. Allah hər şeydən xəbərdardır. Bizim etdiyimiz bütün işləri görməkdədir, lakin görmək və bilmək üçün gözə ehtiyacı yoxdur. O, bizim qəlbimizdən keçənləri də bilir. Çünki, bizi yaradan və bizə göz, qulaq, ağıl və qəlb verən elə Odur. Ağlımızla Onun var olduğunu

və hər şeyi idarə edən əzəmətli sultan olduğunu dərk edirik. Allahın yaratdığı və bizim ixtiyarımızda qoyduğu təbiətdəki nemətləri görüb düşündükcə Onun bizə qarşı mehriban olduğunu və daim bizə yaxşılıq etdiyini başa düşürük. Ata-ana kimi bizi çox sevən insanları yaradan, bizə göz, qulaq və ağız verən, təbiətdəki gözəllikləri bizim üçün hazırlayan və bizə qarşı mehriban olan yeganə Allah necə də gözəldir! O sevilməyə ən layiq olan varlıqdır. Hər bir gözəllik Onun yaratdığıdır və bütün gözəl sözlər Ona aiddir. O həmişə olmuşdur və həmişə olacaqdır.

- اللَّهُ الصَّمَدُ

Allah ehtiyacsızdır. (İxlas surəsi, ayə 2).

- لَيْسَ كَمِثْلِهِ شَيْءٌ ۖ وَهُوَ السَّمِيعُ الْبَصِيرُ

Onun heç bir bənzəri yoxdur və O eşidəndir, görəndir.
(Şura surəsi, ayə 11).

- لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ۚ وَإِلَى اللَّهِ تُرْجَعُ - الْأُمُورُ

Göylərin və yerin mülkü Ona məxsusdur və bütün işlər Ona qayıtmaqdadır. (Hədid surəsi, ayə 5)

## İkinci dərs:

...وَالَّذِينَ آمَنُوا أَشَدُّ حُبًّا لِلَّهِ ۗ...

"...Və iman gətirən insanlar Allahı daha şiddətli şəkildə sevirlər...". (Bəqərə surəsi, ayə 165).

Əziz uşaqlar və yeniyetmələr, siz də görmüsünüz ki, bəzi uşaqlar və hətta böyüklər hansısa məşhur bir insanı çox sevirlər. Onu dəstəkləyir, şəkillərini alıb evin divarına vurur və sevdikləri insanın həyatını həmişə diqqətlə izləyirlər. Sevilməkdə olan bu məşhur insanın bir futbolçu və ya idmançı, yaxud müğənni və ya yazıçı, yaxud da dövlət başçısı və ya imkanlı iş adamı olması mümkündür. Digər insanların onları çox sevməsinin səbəbini araşdırdıqda bir həqiqəti görürük. Sevən insanlar sevdikləri şəxslərdə bir üstünlük görürlər və onlar kimi olmaq istəyirlər. Əgər onları üstün görməsəydilər, niyə görə pərəstiş edərcəsinə sevəydilər?

Bundan əlavə, hər insan öz mehriban anasını xüsusi məhəbbətlə sevməkdədir. Çünki, anamızdan gördüyümüz qayğı və nəvazişi heç kimdən görməmişik. Anamız bizi lay-lay oxuyaraq böyütmüş və öz canının bir parçası kimi bəsləmişdir. Hər zaman ana diqqətini və ana mərhəmətini gördüyümüz üçün onu heç kimə dəyişmərik. Lakin, mühüm sual budur ki, anamızın qəlbində bizə qarşı mövcud olan dərin məhəbbəti və bizə qarşı şiddətli mərhəməti onun qəlbinə kim qoymuşdur? Şübhəsiz ki, hər şeyin yaradıcısı olan uca Allah anaların qəlbinə övlad məhəbbətini salmış və onların ruhunu bizə qarşı şəfqətli qərar vermişdir. Ana qəlbində olan şəfqət və mərhəmət uca Allahın biz insanlara qarşı olan mehribanlığının çox kiçik bir hissəsidir. Anamız bizi körpəlikdən lay-lay deyib yatırdan kəsdir, uca Allah isə bizə yatmağı və dincəlməyi bəxş edəndir. Anamız alma və çiyələk kimi meyvələri yuyub bizə verəndir, uca Allah isə o meyvələri yaradan Xaliqdir. Anamız bizə süd verən, yemək bişirən və bizi daim qorumağa çalışan biridir, uca Allah isə anamıza güc-qüvvət əta edən və hər zaman ona yardım göstərən varlıqdır. Anamızın yatdığı və ya məşğul olduğu zamanda, həmçinin hər bir zaman bizi qoruyan uca Allahdır. Bizi və anamızı yaradan Allahdır. Biz Onun nemətlərini yeyir və içirik, Onun yaratdığı yerin üzərində gəzib dolanırıq və Onun verdiyi güc ilə işlərimizi həyata keçiririk. Belə isə bu qədər neməti bizə hədiyyə edən və anamız kimi birini bizim xidmətimizdə qərar verən uca Allah sevilməyə daha çox layiq deyildirmi? Bizə sonsuz sayda yaxşılıqlar edən Allah, təşəkkür edilməli və sevgi ilə itaət olunmalı varlıq deyildirmi? Şübhəsiz ki, Allaha iman gətirmiş möminlər Onu daha şiddətli şəkildə sevirlər. Çünki, Onun yaxşılıqlarını və Onun hədiyyələrini görürlər, utanırlar və sevgi ilə Ona bağlanırlar. Uca Allahın ən üstün varlıq olduğunu, Onun qüdrət və əzəmətinin

sonsuzluğunu, Allahın qəzəbinin şiddətini və Onun məhəbbətinin şirinliyini hiss edən möminlər Allahın qarşısında səmimi qəlb ilə səcdə edirlər. Allahı sevən və bütün qəlbi ilə Ona bağlanan insan, ən zəngin insandır.

تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ.

(Möminlər gecə vaxtı) yataqdan qalxaraq qorxu və ümid ilə öz Rəbblərinə dua edərlər və onlara verdiyimiz ruzidən infaq edərlər (ehtiyaclı insanlara paylayarlar)." Səcdə surəsi, ayə 16.

## Üçüncü dərs:

نَبِّئْ عِبَادِي أَنِّي أَنَا الْغَفُورُ الرَّحِيمُ (۴۹)
وَأَنَّ عَذَابِي هُوَ الْعَذَابُ الْأَلِيمُ (۵۰)

"Xəbər ver bəndələrimə ki, həqiqətən mən ğəfur və rəhiməm (bağışlayan və rəhimliyəm).Həqiqətən mənim əzabım çox ağrılı əzabdır". (Hicr surəsi, ayə 49 və 50).

Əziz uşaqlar və yeniyetmələr, uca Allahın Öz müqəddəs kitabında bizə buyurduğu iki ayəni və iki əsas xəbəri oxudunuz. Biz bu iki xəbəri və xatırlatmanı hər zaman yadda saxlamalıyıq və heç vaxt unutmamalıyıq. Birinci xəbər budur ki, yeri və göyləri yaradan əzəmətli Allah bağışlayan və rəhimlidir. Biz uca Allahı mərhəmətli kimi tanımalıyıq. Qüdrətli və yenilməz qüvvət sahibi olan Allah, bəndələrinə qarşı mehribandır, rəhimlidir və onların günahlarından keçəndir. Heç zaman Allahın rəhmətinə qarşı ümidsiz olmamalıyıq. Bu, düşmənimiz Şeytanın vəsvəsəsidir ki, bizi uca Allaha qarşı naümid etmək istəyir. Nə qədər səhv etsək və xətalara yol versək də, sonda ürəkdən peşman olub və bir daha günaha qayıtmamaq şərti ilə Allahdan bağışlanmaq istəsək, rəhimli Allah bizi bağışlayar və günahlarımızdan keçər. Çünki, O, bizə qarşı mehriban və rəhimlidir. Lakin! Lakin! Lakin! Biz insanlar rəhimli Allahın mehribançılığına ümidvar halda bilərəkdən və utanmazcasına günahlar edib -"sonra tövbə edərəm"- desək, bu çox yanlış və böyük xətadır. Uca Allahın rəhmətinə ümidvar olduğumuz kimi Onun ağır əzabından da qorxmalıyıq. Heç zaman özümüzü Allahın qəzəbindən amanda görməməliyik və bilməliyik ki, Şeytan və onun ordusu bizi pis işlər görməyə çəkərək Allahın qəzəbinə səbəb olmağımızı istəyir. Uca Allahın qəzəbi isə çox ağırdır və Onun əzabı çox qorxuludur. Fironu dəryada batıran, Ad və Səmud qövmlərini məhv edən, güclü sultan olan Əbrəhəni fillərdən ibarət qoşunu ilə birgə həlak edən və Lut peyğəmbərin azğın qövmünü dəhşətli şəkildə cəzalandıran qüdrətli Allahın cəzası və əzabı dözülməzdir. Axirətdəki Cəhənnəm odu isə Allahın qəzəbinin nəticəsidir ki, Onun qəzəbinə insanların günahları səbəb olmaqdadır. Deməli biz də günah işlər görməkdən uzaq durmalı və Allahın əzabından amanda qalmaq üçün yaxşı işlər görməliyik. Bütün qəlbimizlə Allaha iman gətirsək, Onun bəxş etdiyi nemətlərin haqqında düşünüb çoxlu şükr etsək və günah işlərdən çəkinsək, Allahın əzabından amanda olarıq.

مَا يَفْعَلُ اللَّهُ بِعَذَابِكُمْ إِنْ شَكَرْتُمْ وَآمَنْتُمْ ۚ
وَكَانَ اللَّهُ شَاكِرًا عَلِيمًا

"Əgər şükr etsəniz və iman gətirsəniz, axı niyə görə Allah sizə əzab versin? Allah şakir və əlimdir (yəni, sizin şükrlərinizi qəbul edən və hər şeyi biləndir). Nisa surəsi, ayə 147.

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِنْ شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ ۖ وَلَئِنْ كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

"O zaman ki, Rəbbiniz elan edib buyurdu: Əgər siz şükr etsəniz sizin üçün (nemətləri) artıracam. Əgər küfr etsəniz, (bilin ki) həqiqətən mənim əzabım çox şiddətlidir". İbrahim surəsi, ayə 7.

## Dördüncü dərs:

وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلَائِكَةِ إِنِّي جَاعِلٌ فِي الْأَرْضِ خَلِيفَةً...ۖ

"... O zaman ki, Rəbbin mələklərə buyurdu: həqiqətən mən yer üzündə xəlifə qərar verəcəm...". Bəqərə surəsi, ayə 30.

فَأَزَلَّهُمَا الشَّيْطَانُ عَنْهَا فَأَخْرَجَهُمَا مِمَّا كَانَا فِيهِ ۖ...

"Nəticədə Şeytan onları (Adəm və Həvvanı aldadaraq) azdırdı, ardınca hər ikisinin olduqları yerdən (Behiştdən və uca məqamdan) çıxmasına səbəb oldu...". Bəqərə surəsi, ayə 36.

Əziz uşaqlar və yeniyetmələr, uca və ən gözəl yaradıcı olan Allah biz insanları bir qadın və bir kişidən yaratmışdır. Yəni, ilk insan və ilk kişi bizim ən qədim babamız Həzrəti Adəm olmuşdur. Onun xanımı və ilk qadın isə Həvva xanım idi. Deməli, bizim ən qədim nənəmiz Həvva xanımdır. Bu iki insandan isə çoxlu digər insanlar dünyaya gəlmiş və nəsillər bir-birini əvəz etdikcə yer üzündə insanların sayı artmışdır. Nəticədə bütün insanlar bir kişi və bir qadından yaranmışdır. Bu isə o deməkdir ki, insanlar bir-biri ilə eynidir və sırf yaranışına görə bir şəxsin digərindən heç bir üstünlüyü yoxdur. Dərimizin rənginin və ya danışıq dilimizin fərqli olması, yaxud hansısa bir insanın zahirdə gözəl, digərinin isə ona nisbətən çirkin olmasının heç bir əhəmiyyəti yoxdur və bu kimi hallar bir insanı digərindən üstün etmir. Üstünlük yalnız uca Allahdan qorxmaqla və Ona itaət etməklə əldə olunur. Oxuduğunuz Bəqərə surəsinin otuzuncu ayəsində Allah biz insanların ən qədim babası olan Həzrəti Adəmi yer üzündə xəlifə yaratdığını bildirir. Uca Allah biz insanları bu yer üzündə yüksək vəzifə sahibi kimi yaratmışdır. O, bizə çox dəyər vermişdir. Bizi kəramətli və üstün etmişdir. Yer üzündə bizə imkanlar vermiş, digər canlıları bizim üçün ram etmiş və bizə çoxlu nemətlər əta etmişdir. Beləcə biz yer üzündə xəlifə və canişin olmaq istedadına sahibik. Xəlifə olmağın tələbi isə uca Allaha itaət etmək, qatı düşmənimiz olan Şeytandan uzaq durmaq və yalnız Allahın buyurduğu sözləri yaşatmaqdır. Bunu isə uca Allahın seçdiyi xüsusi insanlar (Peyğəmbərlər və İmamlar) həyata keçirmişdir. Deməli, biz də yer üzündə Allahın hökmlərini öyrənməli, onlara əməl etməli və Allahın göstərişlərini hər yerdə yaşatmalıyıq.

Şeytan isə uca Allahın əmrindən çıxmışdı, Ona üsyan edərək üstün dərəcədən məhrum olmuşdu və ilahi dərgahdan qovulmuşdu. Allahın əmri əsasında Həzrət Adəmə səcdə etmədiyi üçün qovulan Şeytan, Adəmə və onun

övladları olan biz insanlara düşmən kəsildi. O, bizim açıq-aşkar düşmənimizdir. Allah Həzrət Adəmə və Həvva xanıma Cənnətdə istədiyi hər şeydən yeməyə icazə vermişdi və yalnız bircə ağaca yaxın durmamağı tapşırmışdı. Lakin, bizə düşmən olan Şeytan onları aldatdı. Onlara yaxınlaşaraq özünü yaxşı biri kimi göstərdi və guya Adəm ilə Həvvanın da xeyrini istədiyini bildirdi. Onlara yalandan and içdi və uca Allahın əmrini onlara pis bir şey kimi təqdim etdi. Onlara yalançı vədlər verdi və o ağaca yaxınlaşmaqla heç vaxt ölməyəcəklərini, tükənməz mülkə sahib olacaqlarını söylədi. Şeytana aldanıb o ağaca yaxınlaşan Həzrət Adəm və Həvva xanım Cənnətdən çıxarıldı. Baxın və diqqət edin, əziz uşaqlar. Şeytanın xasiyyəti budur! O biz insanları belə yalançı sözlər və yalançı vədlərlə aldatmaq istəyir. Uca Allah barədə bizi pis fikirlərə doğru çəkir. Allah bizi yer üzündə üstün dərəcədə yaratsa da Şeytan özü qovulduğu kimi bizi də yüksək məqamdan ayırmaq istəyir. Həzrət Adəm və Həvvanı aldadaraq onların Cənnətdən çıxmasına səbəb olan Şeytan bizi də həmişə Allahdan və gözəl işlərdən uzaqlaşdırmaq istəyir. Elə isə uca Allahın əmrlərini öyrənməli və onlara əməl edərək Şeytandan uzaq durmalıyıq. Yaddan çıxarmamalıyıq ki, Şeytan və onun ordusu hər zaman bizi aldatmaq istəməkdədir və biz Allaha söykənərək Onun göstərişlərinə əməl etsək, Şeytanı məğlub edə bilərik.

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَنْ لَا تَعْبُدُوا الشَّيْطَانَ ۖ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُبِينٌ

"Ey Adəm övladları, məgər mən sizinlə əhd bağlamadım (sizə tövsiyə etmədim) ki, Şeytana ibadət etməyin (ona tabe olmayın)! Həqiqətən o, sizin açıq-aşkar düşməninizdir". Yasin surəsi, ayə 60.

## Beşinci dərs:

قُلْ إِنَّ الْأَوَّلِينَ وَالْآخِرِينَ، لَمَجْمُوعُونَ إِلَىٰ مِيقَاتِ يَوْمٍ مَعْلُومٍ

" (Onlara) de ki, həqiqətən əvvəldə və axırda olanların hamısı məlum bir günün (Qiyamət gününün) müəyyən vaxtında toplanacaqlar". Vaqiə surəsi, ayə 49 və 50.

Əziz uşaqlar və yeniyetmələr, bizi var edən və bizə eşitmək üçün qulaq, görmək üçün göz, düşünmək üçün ağıl verən uca Allahın hər bir işi hikmətlidir. Yəni, O heç bir zaman əbəs və mənasız iş görməz. Onun bütün işləri dərin hikmətə söykənməkdədir. Üzərində yaşadığımız bu dünyanın bir çox nemətlərini bizim üçün ram edən uca Allah biz insanları boş yerə yaratmış ola bilməz. Əksinə, mütləq bir zərurətdir ki, Allah bizi ali bir məqsəd üçün yaratmışdır. Bu ali məqsəd Ona ibadət edib Şeytandan uzaq olmaqdır. Beləcə ruhumuzla ucalmaq, kamilliyə yetişmək və mələklərdən də üstün məqama çatmaq bizim üçün gözəl bir dəyərdir. Allahın razılığını qazanmaq və Allahın yanında üzüağ olmaq insan üçün ən böyük dərəcədir. Əgər bir insan bu gözəlliklərə çatmaq üçün çalışmazsa və Şeytana tabe olaraq Allahdan uzaqlaşarsa, o, dördayaqlı heyvandan da aşağı birinə çevriləcəkdir. Yəni, Şeytana tabe olan insan öz kəramətini və üstünlüyünü əldən verib heyvandan da aşağı səviyyəyə düşəcəkdir. Nəticə olaraq başa düşürük ki, dünyaya gəlmiş insanın iki seçimi vardır: ya uca Allaha ibadət edib ucalmaq və yaxud Şeytana tabe olub alçalmaq. Bu ikisi arasında heç bir yol yoxdur. İnsan bu dünyada ya ucalacaqdır, ya da alçalacaqdır. Qiyamət günündə bütün insanlar yenidən dirildiyi zaman hər kəs öz məqamını görəcəkdir. Həzrəti Adəmdən başlamış ən son insana kimi hər kəs uca Allahın ağır məhkəməsinin bərpa olacağı gün diriləcəkdir. Əbədi həyatın necəliyini təyin edəcək o sorğu-sual və misli görünməmiş haqq-hesab günü bir çox üzlər qaralacaqdır. Dünyada ucalmağı bacarmayan və heyvandan da aşağı dərəcəyə düşən zalım, cinayətkar və haqsız insanlar Cəhənnəm əzabını görəcəkdir. Heç zaman qorxmadıqları şəkildə qorxacaq və o ağır əzabdan qurtulmaq üçün hər şeyi fəda etməyi istəyəcəklər. Lakin, xeyri olmayacaqdır. Onları qaynar su və irin ilə qidalanmağa, zərrə sərinlik olmayan yandırıcı Cəhənnəmdə əsrlər boyu qalmağa və ölmək istəsələr də ölə bilməyib əzab çəkməyə məcbur edəcəklər. Digər tərəfdə isə Allaha ibadət edərək ucalmış insanlar olacaqdır. Onlar Qiyamət günündə öz uca məqamlarını görərək sevinəcəklər. Nemətlərlə və növbənöv meyvələrlə dolu, altından çaylar axan bağlara son dərəcə sevinclə daxil olacaqlar. Əbədi xoşbəxtliyin sevinci onların ruhunu bürüyəcəkdir. Dünyada başlarına gəlmiş halları xatırlayacaq və Allahın çoxlu yaxşılıqlar edən rəhimli bir yaradıcı olduğunu iqrar edəcəklər. Necə də gözəl haldır və necə də şirin başlanğıcdır.

Bu iki zümrədən əlavə Qiyamətdə bəzi insanların özünəməxsus halları da olacaqdır ki, bu barədə gələcəkdə Allahın izni ilə öyrənərsiniz. Həqiqətən, Allah yanında olan nemətlər daha xeyirlidir və əbədidir. Bu dünyada bizə verilənlər isə keçici və müvəqqətidir. Elə isə əziz uşaqlar, bu fani və tez gəlib keçən dünyanın mal-mülkünə, şöhrətə və Şeytanın hiylələrinə aldanmayın. Əks halda dəhşətli peşmançılıqla sonlanan Axirətdəki bədbəxtliklə üzləşərsiniz.

مَا عِنْدَكُمْ يَنْفَدُ ۖ وَمَا عِنْدَ اللَّهِ بَاقٍ ۗ

"Sizin yanınızda olan hər şey yox olacaqdır və Allah yanında olan şeylər isə baqidir (həmişə qalıcıdır, sonu yoxdur)". Nəhl surəsi, ayə 96.

بَلْ تُؤْثِرُونَ الْحَيَاةَ الدُّنْيَا (١٦)
وَالْآخِرَةُ خَيْرٌ وَأَبْقَى (١٧)

"Lakin, (siz) dünya həyatını üstün tutursunuz, (halbuki) Axirət daha yaxşı və daha çox baqidir (qalıcıdır)." Əla surəsi, ayə 16 və 17.

## Altıncı dərs:

وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَانًا فَتُقُبِّلَ مِنْ أَحَدِهِمَا وَلَمْ يُتَقَبَّلْ
مِنَ الْآخَرِ قَالَ لَأَقْتُلَنَّكَ ۖ قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللَّهُ مِنَ الْمُتَّقِينَ

"(Ya Rəsulum!) Onlara Adəmin 2 oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) demişdi: "Səni mütləq öldürəcəyəm! (Habil ona) belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən qəbul edər!"  Maidə surəsi, ayə 27.

Əziz uşaqlar və yeniyetmələr, ilk insan və ən qədim babamız olan həzrət Adəmin Habil və Qabil adında iki oğlu var idi. Qabil yaşca Habildən böyük idi. Lakin Habil uca Allahdan qorxmaqda, Ona şükr və itaət etməkdə, bir sözlə təqva cəhətindən qardaşı Qabildən daha üstün idi. Təqvalı insana müttəqi deyirlər. Təqva, yəni uca Allahdan qorxmaq və Onun qadağan etdiyi pis işlərdən uzaq durmaqdır. Habil müttəqi bir insan idi. Həzrət Adəm hər iki oğlunu çox istəyirdi, lakin Habilin dərəcəsi xüsusi idi. Aralarında yaranan mübahisəli bir məsələdən sonra Habil ilə Qabil öz atalarına müraciət etdilər və problemi həll etməsini ondan istədilər. Həzrət Adəm uca Allahın əmri əsasında onların hər birindən qurbanlıq gətirməsini tələb etdi. Hər ikisi qurbanlıq gətirdikdən sonra isə nəticə Habilin xeyrinə oldu və Qabilin qurbanlığı qəbul edilmədi. Buna dözə bilməyən və kiçik qardaşı Habilə həsəd aparan Qabil onu öldürmək qərarına gəldi. Maidə surəsinin 27-ci ayəsində oxuduğumuz kimi Qabil öz qərarını qardaşı Habilə də söyləmişdi. Habil isə onun cavabında buyurmuşdu ki, Allah yalnız müttəqi insanlardan qəbul edir. Qabil öz qardaşının ondan üstün olmasını qəbul edə bilmədi. Ona paxıllıq etdi və həsəd apardı. Beləliklə, haram iş gördü və ilk öncə özünə zülm etmiş oldu. Paxıllıq edən və başqasına həsəd aparan insan ilk növbədə özünü əziyyətə salmış olur. Zehninin rahatçılığı və qəlbinin sakitçiliyi aradan qalxır, özünü narahat hiss edir və Allaha şükr etmək kimi gözəl bir nemətdən tədricən uzaqlaşır. Yəni, paxıl insan get-gedə bədbəxt olur. Qabil də həsəd üzündən və qardaşına etdiyi paxıllığa görə rahat deyildi. Qəlbinin narahatçılığı çox idi və beləcə düşmənimiz Şeytanın vəsvəsəsinə aldanaraq öz gözəl qardaşını qətlə yetirdi. Bu işdə ilk günahı həsəd və paxıllıq oldu, ikinci günahı isə Habili öldürməklə gerçəkləşdi. Çox böyük bir yanlışlıq etdi, uca Allahın ona verdiyi nemətlərə görə şükr etmək əvəzinə Habilə həsəd apardı və nəticədə ağır cinayəti həyata keçirdi. Tarixə ilk qatil və ilk cinayətkar insan kimi adı düşmüş Qabil öz paxıllığının əsirinə çevrildi. Min illər sonra biz onu yaxşı xatirə ilə yad etmirik, əksinə onu xoşagəlməz və bəyənilməyən bir formada xatırlayırıq.

Çünki, o, uca Allaha şükr etməmişdi, Onun əmrinə tabe olmamışdı və qardaşına paxıllıq etmişdi. Elə isə əziz uşaqlar, heç vaxt heç kimə qarşı həsəd aparmayın. Başqasında olan və sizin sahib olmadığınız şeylərə görə heç kimə paxıllıq etməyin. Mehriban Allahın sizə verdiyi nemətlərə görə Ona çoxlu şükr edin. Dəqiqliklə bilin ki, sizdə olan bir çox şeyə sahib olmayan uşaqlar vardır. Atası və ya anası olmayan, gözü görməyən və ya qulağı eşitməyən uşaqlar vardır. Yaxud evi olmayan və bəzən yeməyə bir qida tapa bilməyən insanlar vardır. Daim öz əlinizdə olanlara diqqət edin və o nemətlərə sahib olmayan insanları yada salın. Hər zaman uca Allaha şükr və təşəkkür edin ki, paxıllıq kimi pis əməli özünüzdən uzaqlaşdırasınız.

فَاذْكُرُونِي أَذْكُرْكُمْ وَاشْكُرُوا لِي وَلَا تَكْفُرُونِ

"(Allah buyurur:) Elə isə məni yada salın ki, mən də sizi yad edim və mənə şükr edin və küfr etməyin." Bəqərə surəsi, ayə 152.

## Yeddinci dərs:

وَمَنْ يُطِعِ اللَّهَ وَالرَّسُولَ فَأُولَٰئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاءِ وَالصَّالِحِينَ ۚ وَحَسُنَ أُولَٰئِكَ رَفِيقًا

"Allaha və Rəsuluna itaət edən insanlar (bax onlar) Allahın nemət verdiyi Peyğəmbərlər, siddiqlər, şahidlər və salehlərlə birgə olanlardır. Onlar necə də gözəl dostdurlar". Nisa surəsi, ayə 69.

Əziz uşaqlar və yeniyetmələr, hər bir insanın dosta və yoldaşa ehtiyacı vardır. İnsan sosial və ictimai varlıqdır, yəni onu digər insanlardan ayırmaq və dost-tanışsız qoymaq mümkün deyildir. Digər şəxslərlə ünsiyyətdən məhrum olan insan daşla-divarla və ya öz zehnində təsəvvür etdiyi şəxslə danışacaqdır. Çünki, insan dosta və ünsiyyətə ehtiyaclıdır. Dost seçdiyimiz və ünsiyyət qurduğumuz insanların kim olduğu isə çox mühümdür. Hər bir insanın digərinə təsiri vardır. Pis insan öz pisliklərini digərinə ötürür, yaxşı insan isə öz gözəl ab-havası ilə dostuna müsbət təsir edir. Əgər dürüst bir insan yalançı adamla çox ünsiyyət qurub dostluq edərsə, sonda o da yalan danışmağa başlayacaqdır və ya əksinə o yalançı adam doğrucul dostunun təsirinə düşəcək və yalan danışmağı tərk edəcəkdir. Oğru olan şəxs öz dostunu oğru etməyə çalışır, eynilə həmin cür səxavətli insan da öz dostunu xeyirli işlərə dəvət edir. Bir sözlə, hər kəs öz xasiyyətinə uyğun hərəkət edir və çox zaman insanlar öz bənzərinə meyl edir, özü kimi biri ilə dostluq edir və xasiyyətləri oxşar olan insanlar bir-birinin dostuna çevrilir.

Əziz uşaqlar və yeniyetmələr, yuxarıda qeyd etdiyimiz həqiqətləri heç zaman unutmayın. Yaşa dolduqca bu həqiqətləri daha yaxşı dərk edəcəksiniz. Lakin indidən öz dostlarınızı düzgün seçin. Uca Allahı tanıyan, Ona itaət edən və Peyğəmbərləri sevən insanlarla dostluq edin. İmamlarımızın həyatını öyrənən, düz söz danışan və yalançılıqdan uzaq olan, Şeytana düşmən olan və insanları düz yola çağıran şəxsləri özünüzə dost seçin. Saleh və yaxşı işlər görməyə çalışan, günahlardan uzaq duran dostlarla ünsiyyət qurun. Müttəqi olan dostlarla vaxt keçirin ki, dünya və axirətdə xoşbəxt olasınız. Allaha itaət etməyən, yalan danışan və günah işlər görən insanları düz yola çağırın. Əgər qəbul etməsələr və pis işlərinə davam etsələr onlardan uzaqlaşın. Unutmayın ki, pis insanlarla dostluq etmək sonda çox acı bir peşmançılıqla bitir. Sonrakı peşmançılığın isə bir faydası olmur.

الْأَخِلَّاءُ يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا الْمُتَّقِينَ

"O gün (Qiyamət günü) müttəqilərdən başqa bütün dostlar bir-biri ilə düşmən olacaqdır". Zuxruf surəsi, ayə 67.

يَا وَيْلَتَىٰ لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًا

"Vay olsun mənə, ey kaş (dünyada ikən kafir və günahkar biri olan) filankəsi dost seçməzdim". Furqan surəsi, ayə 28.

## Səkkizinci dərs:

لَقَدْ جَاءَكُمْ رَسُولٌ مِنْ أَنْفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُمْ
بِالْمُؤْمِنِينَ رَءُوفٌ رَحِيمٌ

"Həqiqətən sizə (mələklərdən və cinlərdən deyil) özünüzdən olan bir peyğəmbər gəlib ki, sizin əziyyət və zərərə düşməyiniz ona ağırdır; o, sizi(n iman gətirməyinizi və kamala çatmağınızı) çox istəyir və möminlərə qarşı çox mərhəmətli və mehribandır". Tövbə surəsi, ayə 128.

وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ

"Həqiqətən, sən (ey Peyğəmbər) əzəmətli bir əxlaq üzərindəsən (böyük əxlaqa sahibisən)". Qələm surəsi, ayə 4.

Əziz uşaqlar və yeniyetmələr, uca Allahın bizə göndərdiyi elçilər olan Peyğəmbərlərin ən sonuncusu və ən üstünü seçilmiş əziz Peyğəmbərimiz həzrət Muhəmməd (s.ə) çox gözəl və nümunəvi əxlaqa sahib idi. O, uca Allahdan çox qorxardı və Allahdan başqa heç kimdən qorxusu yox idi. Gecələr Allaha ibadət edər və Onun razılığını hər şeydən üstün tutardı. Uşaqlıq dönəmindən yetim qalmış və ata-anasız böyümüş əziz Peyğəmbərimiz (s.ə) yetim uşaqlara qarşı çox mehriban idi. Ona verilən əmanətləri qoruyardı və hər zaman düz danışardı. Heç zaman əmanətə xəyanət etmədiyi və daim düzgün danışdığı üçün ona "əmin (yəni əmanətdar və doğrucul insan)" deyirdilər. Səxavətli və əliaçıq bir insan idi. Eyni zamanda çox təvazökar və sadə qəlbə sahib biri idi. Onu daha çox tanıdıqca, sevməmək mümkün deyildir. Həzrət Muhəmmədin (s.ə) həyatını və əxlaqını oxuduqca, onun necə əzəmətli bir şəxsiyyət olduğunu görürük və onu daha çox sevirik. O həzrət əlinə qüdrət keçdiyi zaman əvvəlki təvazökarlığını itirməmişdi. Daim ədalət və mərhəmət əsasında insanlarla rəftar edirdi. Öz şəxsi məsələlərində yumşaq və bağışlayan biri idi. İnsanlara salam verərdi və hər kim onu öz süfrəsinə dəvət etsəydi, hətta kasıb süfrəsi olsaydı və orada bir neçə xurmadan başqa heç nə olmasaydı belə həmin dəvəti qəbul edərdi. Peyğəmbərimizin (s.ə) təvazökarlığını göstərən bir neçə əlaməti də bunlar idi ki, o həzrət palansız ulağa minirdi, keçini öz əli ilə sağırdı, uşaqlara daim salam verirdi, yun paltar geyinirdi və bu xüsusiyyətlərin özündən sonra da yaşamasını istəyirdi. Gəlin, əziz Peyğəmbərimizin (ə) sadəliyini göstərən bir rəvayət ilə sözümüzü bitirək. Rəvayət olunur ki, Peyğəmbər (s) səfərdə idi, yemək üçün bir qoyun kəsilməsini əmr etdi. Yoldaşlarından biri dedi: “Onu kəsmək mənim boynuma.” Başqası dedi: “Dərisini soymaq da mənim boynuma.” Başqa birisi dedi: “Xörəyi bişirmək də mənim boynuma.” Beləcə hər kəs bir işi öz boynuna götürdü. Peyğəmbər (s) belə buyurdu: “Elə isə ocaq qalamaq üçün odun yığmaq da mənim boynuma.” Dedilər: “Ey Allahın Elçisi,

biz özümüz odun yığacağıq, daha sizin zəhmət çəkməyinizə ehtiyac yoxdur.” Həzrət (s) buyurdu: “Bilirəm, amma özümü sizdən üstün saymaq istəmirəm, çünki Allah-Təala özünü başqalarından üstün sayan bəndəni xoşlamır.” (Müntəhal-amal cild 1, səh.18).

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِمَنْ كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ
وَذَكَرَ اللَّهَ كَثِيرًا

"Həqiqətən, Allahın Rəsulu sizin üçün, həmçinin Allaha, Qiyamət gününə ümid bəsləyən və Allahı çox zikr edən şəxslər üçün gözəl örnəkdir!". Əhzab surəsi, ayə 21.

## Doqquzuncu dərs:

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

"Sizin vəliniz (rəhbəriniz) yalnız Allah və Onun Rəsulu və (həmçinin) o kəslərdir ki, iman gətirib namaz qılırlar və rüku halında ikən zəkat verirlər". Maidə surəsi, ayə 55.

Əziz uşaqlar və yeniyetmələr, yuxarıda oxuduğunuz mübarək ayənin nazil olması haqqında məşhur "Əl-ğədir" kitabında (cild 2, səhifə 52) qeyd olunmuşdur ki, əziz Peyğəmbərimizin (s.ə) səhabələrindən olan 10 nəfər şəxs belə nəql edir: "Bir dilənçi şəxs məscidə daxil oldu və camaatdan kömək istədi. Heç kəs ona bir şey vermədi. Həzrət Əli (ə) namazda və ruku halında ikən öz üzüyünü ona bağışladı. Bu bəxşişin tərifi üçün Maidə surəsinin 55-ci ayəsi nazil oldu". İbn Abbas, Əmmar Yasir, Cabir ibn Abdullah, Əbuzər, Ənəs ibn Malik və Bilal kimi tanınmış səhabələrin nəql etdiyi bu rəvayətə əsasən İmam Əli (ə) uca Allahın Rəsulundan (s.ə) sonra bütün möminlərin rəhbəridir. Çünki, sözügüdən ayədə uca Allah Özü və Rəsulunun vəlilik (vilayət və rəhbərlik) məqamına toxunduqdan sonra məhz İmam Əlinin (ə) gördüyü işi mədh edərək onu bizə vilayət sahibi kimi tanıtdırır. Bəli, İmam Əli (ə) uşaqlıq illərindən əziz Peyğəmbərimiz həzrət Muhəmmədin (s.ə) yanında böyümüşdü. O həzrətdən gözəl təlimlər almış və gözəl əxlaq öyrənmişdi. İslamın ilk günlərindən əlavə müsəlmanların ən ağır dövrlərində əziz Peyğəmbərimizin (s.ə) yanında olmuşdu. O, müharibələrdə elə bir şücaət və qəhrəmanlıq göstərmişdir ki, heç kəs ona tay ola bilməz. Elminin dərinliyi və bilgisinin çoxluğunda da heç bir səhabə İmam Əliyə (ə) bərabər deyildi. O, həm elmli, həm şücaətli, həm də səxavətli biri idi. Həzrət Muhəmmədin (s.ə) ən gözəl yetirməsi olduğu kimi həm də onun canişini idi. Xanımların ən üstünü olan həzrət Zəhra (s.ə) ilə ailə həyatı qurmuşdu ki, bu pak və bərəkətli evlilikdən İmam Həsən (ə) və İmam Hüseyn (ə) kimi övladlar dünyaya göz açdı. İmam Əli (ə) uca Allahın pak Rəsulu həzrət Muhəmmədə (s.ə) o qədər yaxın idi ki, bunu Musa peyğəmbər ilə qardaşı Harun peyğəmbərin nisbəti kimi hesab edirik. Beləki uca Allah Qurani-Kərimin Taha surəsinin ayələrində Həzrət Musanın belə dua etdiyini bizə çatdırır:

• وَاجْعَل لِّي وَزِيرًا مِّنْ أَهْلِي ، هَارُونَ أَخِي ،اشْدُدْ بِهِ أَزْرِي، وَأَشْرِكْهُ فِي أَمْرِي

"Mənim üçün öz əhlimdən bir vəzir qərar ver qardaşım Harunu, onunla arxamı (belimi) möhkəm et və onu işimə şərik et". Taha surəsi, ayə 29, 30, 31 və 32.

Deməli, həzrət Harun, qardaşı həzrət Musanın həm vəziri, həm dayağı, həm də işlərində onun şəriki idi. Bir sözlə, onun canişini (!) idi. Həzrət Musa olmayan yerdə və zamanlarda Harun peyğəmbərə itaət etmək eynilə Musaya tabe olmaq kimi idi. Həzrət Haruna itaət edib ona tabe olmaq möminlərə vacib idi. Əziz Peyğəmbərimiz (s.ə) İmam Əli (ə) haqqında belə buyurur:

أنتَ مِنّى بِمَنزلةِ هارونَ مِنْ مُوسى، اِلّا أنه لانَبىّ بَعدى.

"Sənin mənə olan nisbətin Harunun Musaya olan mənziləsi (misalı) kimidir, bircə fərq budur ki, məndən sonra peyğəmbər yoxdur" (Təfsire-Qumi cild 2, səh 109. Səhih Buxaridə "Səhabələrin fəzilətləri kitabının" Əli ibn Əbitalibin fəzilətləri babı).

Gördüyünüz kimi Harun peyğəmbər həzrət Musanın vəziri, dayağı və işlərində şəriki olduğu kimi İmam Əli (ə) də həzrət Muhəmmədin (s.ə) vəziri, dayağı və işlərində şəriki idi. Sadəcə bir fərq var idi ki, o da həzrət Əlinin (ə) peyğəmbər olmaması və imam seçilməsi idi. Çünki, peyğəmbərlərin sonuncusu həzrət Muhəmməddir. Həzrət Muhəmmədi (s.ə) sevən şəxs İmam Əlini (ə) də sevməlidir. Allah rəsuluna (s.ə) tabe olan şəxs İmam Əliyə (ə) də tabe olmalıdır. Qurani-Kərimə inanan və əməl edən şəxs İmam Əlini (ə) özünə rəhbər bilməlidir.

## Onuncu dərs:

وَلَقَدْ أَخَذَ اللَّهُ مِيثَاقَ بَنِي إِسْرَائِيلَ وَبَعَثْنَا مِنْهُمُ اثْنَيْ عَشَرَ نَقِيبًا...

"Həqiqətən, Allah İsrail oğullarından əhd aldı. Biz onların arasından 12 nəfəri nəzarətçi (kəfil) seçdik..." Maidə surəsi, ayə 12.

Əziz uşaqlar və yeniyetmələr, istənilən cəmiyyətin bir başçısı olmalıdır. Siz insan cəmiyyətinin hər hansı mühüm və faydalı bir hissəsinə nəzər salsanız, orada bir rəhbər şəxsin olduğunu görəcəksiniz. İstənilən bir ordunun, hər hansı bir fabrikin, hər bir təşkilatın, həmçinin hər bir məktəbin və hətta məhəllənizdə yerləşən ən kiçik bir dükanın da başçısının olduğunu görməkdəsiniz. Təbii ki, bu başçılar bir-birindən fərqlidirlər və adi dükanı işlədən bir şəxslə böyük bir fabriki idarə edən rəhbər şəxsin arasında ciddi fərqlilik vardır. Fabrikin çoxlu işçisi, texniki vəsaitləri və xammal kimi ehtiyac duyulan tərəflərinin mövcudluğu bu işə rəhbərlik edən şəxsin daha ağır yük daşıdığını bizə göstərir. Ordu başçısı olan şəxsin işi isə daha çətindir və orduya başçılıq edən insanın yükü daha ağırdır. Çünki, insanların və öz əsgərlərinin həyatı onun döyüş zamanı verdiyi qərarlardan asılıdır. Bu üç misaldan başa düşürük ki, insan cəmiyyətində bütün işlər nizamlı və təyin olunmuş bir başçının nəzarəti altında gerçəkləşir. Ən sadə dükandan başlamış fabrik və ordu kimi mürəkkəb quruluşlarda da rəhbər şəxsə ehtiyac vardır. Deməli, insan cəmiyyəti rəhbər şəxs olmadan öz nizamını itirəcəkdir. Uca Allah da bir çox peyğəmbəri rəhbər olaraq təyin etmişdi. Onlar insanlara haqqı göstərirdi və onlara tabe olub itaət etmək digər şəxslərin vəzifəsi idi. Kiçik və ya böyük olmasından asılı olmayaraq onlar cəmiyyət başçısı idilər. Onların işi və daşıdıqları yük digər bütün rəhbər şəxslərdən daha ağır idi. Çünki, onlar hidayətə çağırdıqları insanların dünya və axirət səadətini istəyirdilər. Həzrət Muhəmməd (s.ə) sonuncu və ümumbəşəri bir peyğəmbər olaraq ən üstün insan idi. O həzrət özündən sonra başçılıq etdiyi müsəlman cəmiyyətini rəhbərsiz qoymamışdı. Bir ailəni başçısız qoymaqdan qat-qat daha ağır və qat-qat daha zərərlidir ki, insan cəmiyyəti rəhbərsiz və özbaşına, tənha buraxılsın. Əvvəlki dərsdə də işarə etmişdik ki, Həzrət Muhəmmədin (s.ə) canişini və ondan sonra müsəlmanların rəhbəri İmam Əli (ə) seçilmişdir. İmam Əlidən (ə) sonra isə növbə ilə digər 11 məsum və pak imamımız müsəlmanların başçısı məqamına layiq görülmüşdür. "Lövhə hədisi" adlanan məşhur rəvayətə əsasən (Kafi cild 1, səh 527; Kəmaluddin cild 1, səh 308) Həzrət Muhəmməddən (s.ə) sonra müsəlmanların başçısı və rəhbərləri sıra ilə aşağıda mübarək adları yazılan imamlarımızdır:

1- İmam Əli (ə) - Əmirəl-möminin.

2- İmam Həsən (ə) - Müctəba.

3- İmam Hüseyn (ə) - Seyyiduş-şühəda.

4- İmam Əli ibn Hüseyn (ə) - Zeynulabidin.

5- İmam Muhəmməd ibn Əli (ə) - Baqir.

6- İmam Cəfər ibn Muhəmməd (ə) - Sadiq.

7- İmam Musa ibn Cəfər (ə) - Kazim.

8- İmam Əli ibn Musa (ə) - Riza.

9- İmam Muhəmməd ibn Əli (ə) - Təqi.

10- İmam Əli ibn Muhəmməd (ə) - Hadi.

11- İmam Həsən ibn Əli (ə) - Əskəri.

12- İmam Məhdi (ə). Zamanımızda mövlamız olan ağanın adı əziz Peyğəmbərimizlə (s.ə) eynidir, amma biz o həzrəti "İmam Zaman" və ya "İmam Höccət ibnil-Həsən" kimi isimlərlə yad edirik.